Ordu quruculuğu prosesi, təbii ki, təkcə maddi-texniki təminatla məhdudlaşmır. Döyüş qabiliyyəti, əsgər-zabit heyətinin mənəvi-psixoloji durumu mühüm yer tutur. Mən tam əminliklə deyə bilərəm ki, bu baxımdan Azərbaycan Ordusu güclü ordular sırasındadır. Döyüş qabiliyyəti artır, orduda mənəvi-psixoloji vəziyyət çox müsbətdir, vətənpərvərlik ruhu, nizam-intizam yüksək səviyyədədir. Əlbəttə, bütün bu amillər bizim hərbi gücümüzü daha da artırır. Mən son illər ərzində dəfələrlə qeyd etmişəm ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Aprel döyüşləri və İkinci Qarabağ müharibəsi bunu bir daha sübut etdi. Bütün dünyaya sübut etdi ki, bu gün Azərbaycanla hesablaşmaq lazımdır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**



# Güclü və peşəkar, müzəffər Azərbaycan Ordusu

**Bu gün qəhrəmanlığı, yenilməzliyi ilə bütün dünyada haqqında danışılan müzəffər Azərbaycan Ordusu mövcuddur. O ordu ki, əsgərindən generalına kimi Vətən yolunda canından keçməyə, torpaqları uğrunda son damla qanına qədər vuruşmağa hazırdır. Yağı düşmənə diz çökdürən, ona döyüş meydanında layiqli dərs verən Azərbaycan Ordusu bunu İkinci Qarabağ müharibəsində bir daha sübut etdi.**

Müzəffər Ordumuz döyüş meydanında düşməni məhv edərək 30 il ərzində işğal altında qalan torpaqlarımızı azad etdi. Cəmi 44 gün ərzində torpaqlarını düşməndən azad edən qəhrəman Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində Zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərkən dünyaya sübut etdi ki, onun ən müasir, beşinci nəsil silahlarla təmin olunmuş, dünya miqyasında ən güclü ordular sırasında yer tutan, qarşısına qoyulan vəzifəni yerinə yetirmək qabiliyyətinə malik olan və ən nəhayət, vətəni, xalqı, milləti yolunda hər an döyüşməyə hazır olan vətənpərvər ruhlu Ordusu var. Və bu ordunun qarşısında heç bir qüvvə dayana bilməz.

**(davamı 8-ci səhifədə)**

Respublika.- 2022- ci il.- 13 avqust.- S. 1.

# Güclü və peşəkar, müzəffər Azərbaycan Ordusu



(əvvəli 1-ci səhifədə)

Ən müasir silahlarla, texnika ilə təchiz olunan milli ordumuzun əsgər və zabitləri Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin komandanlığı ilə hər günü bir tarixə dönən Zəfərimizi yazdılar. Bu zəfərdə Ordumuzun Xüsusi Təyinatlıları xalq qarşısında, tarix qarşısında, gələcək nəsillər qarşısında öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirərək misilsiz qəhrəmanlıqlar göstərdilər, torpaqlarımızın işğaldan azad olunmasında hünər, rəşadət, mətinlik nümayiş etdirdilər. Azərbaycan Ordusunun nəyə qadir olduğunu əməliyyatların zirvəsində duran Şuşa savaşında göstərdilər. Onların qayalara dırmaşaraq Şuşa şəhərini işğaldan azad etməsi dünya hərb tarixinin nümunəsinə çevrildi. Tam fərqli situasiyalar üçün hazırlanan, çətin şəraitlərdə müxtəlif döyüş tapşırıqlarını yerinə yetirən xüsusi təyinatlılar əsasən müddətli və müqavilə əsasında hərbi xidmətə çağırılmış şəxslərdən formalaşdırılır. Postmüharibə dönəmində Azərbaycan Ordusunda həyata keçirilən islahatlardan biri də Xüsusi Təyinatlı Qüvvələrin sayının iki dəfə artırılması və bu prosesin bu gün də davam etməsidir. Bu isə Vətən müharibəsində öz qəhrəmanlığı ilə tarix yazan Xüsusi Təyinatlılara, onların peşəkarlığına və bu hərbi birləşmənin perspektivinə olan inamın göstəricisidir. Əbəs deyil ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsinin şəxsi heyəti qarşısında çıxış edərkən demişdir: "Mən sizinlə fəxr edirəm. Bütün Azərbaycan xalqı sizinlə fəxr edir. Ermənistan, Ermənistan silahlı qüvvələri Azərbaycan xüsusi təyinatlılarının adı gələndə titrəməyə başlayırlar. Onların canlarında olan bu xof bu günə qədər çıxmayıb və çıxmayacaq".

Türkiyə Silahlı Qüvvələrinin təcrübəsindən məharətlə bəhrələnən, Türk Silahlı Qüvvələrinin modelinə uyğun təşkil edilən və bu gün öz döyüş qabiliyyəti, peşəkarlığı ilə dünyada tanınan, güclü, sarsılmaz Azərbaycan Ordusunda İkinci Qarabağ müharibəsindən sonra yeni əməliyyat hissələri - komandolar yaradıldı. Azərbaycanın hərb tarixində mühüm yenilik olan bu hadisə Prezident İlham Əliyevin Azərbaycan Ordusuna, onun peşəkarlığının artırılmasına son dərəcə böyük diqqət yetirdiyini bir daha sübut etdi. Ötən il dekabrın 24-də Xocavənd rayonunun Hadrut qəsəbəsində yeni hərbi hissənin - Komando Briqadasının açılışında iştirak edən Ali Baş Komandan demişdir: "Yüksək təlim keçmiş, yüksək iradə nümayiş etdirmiş və Vətən uğrunda özlərini fəda etməyə hazır olan övladlarımız bax, bu briqadalarda xidmət edəcək. Bu, bizim ordu gücümüzü böyük dərəcədə artıracaq".

Xüsusi təlim keçmiş hərbi qulluqçular - komandolar orduda ən tələbkar və qabaqcıl təlim və təhsil görmüş hərbi qulluqçular arasından seçilir. Onlar istənilən vaxt və hər yerdə - quruda, dənizdə və havada döyüşmək üçün xüsusi olaraq hazırlanırlar. İstənilən vəzifəni icra edə bilən komandolar xüsusi əməliyyatlarda seçilmiş, öyrədilmiş xüsusi əsgər qüvvələridir.

İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı möhtəşəm Zəfərdən sonra Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən Azərbaycan Ordusunun maddi-texniki təminatının yaxşılaşdırılması istiqamətində zəruri tədbirlər həyata keçirilir. Hərbi bilik və təcrübələrin möhkəmləndirilməsi, döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədilə ən son model döyüş texnologiyaları ilə gücləndirilən Azərbaycan Ordusu həm də yüksək səviyyəli təlimlərdə iştirak edir.

Belə ki, ötən il Bakıda keçirilən "Mustafa Kamal Atatürk - 2021" birgə döyüş atışlı taktiki təlim, Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə hər üç ölkənin hərbi qulluqçularının peşəkar hazırlıq səviyyəsinin daha da artırılmasına böyük töhfə verən "Üç qardaş - 2021" beynəlxalq təlim, Gürcüstanın Tbilisi şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə "Eternity-2021" kompüter dəstəkli, nəzəri və praktiki hissədən ibarət olan komanda-qərargah təlimi, Türkiyə Respublikasında keçirilən "Doğu Akdeniz-2021" çoxmillətli dəniz təlimi, eyni zamanda əsas hədəfləri terrorçuluqla mübarizə, xilasetmə, silah və sursatlardan istifadə olan, Türkiyə Silahlı Qüvvələrinin ən böyük müştərək və birləşmiş təlimlərindən olan "Efes-2022", Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2022-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı çərçivəsində Silahlı Qüvvələrin Hərbi Akademiyasında əldə düzəldilmiş partladıcı qurğulara qarşı tədbirlər (C-IED) mövzusunda aparılan təlim və s. XXI əsrin müharibəsini aparmış Müzəffər Azərbaycan Ordusu döyüş təcrübəsini, hərbi biliklərini daha da artırır, öz gücünü, iradəsini bütün dünyaya nümayiş etdirən, ərazi bütövlüyünü təmin edən Azərbaycanın hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlıq əlaqələrini genişləndirərək əmin-amanlığa, sülhə töhfə verməklə, bölgədəki sabitliyi təmin etmək məqsədilə müdafiə qüdrətini daha möhkəmləndirir.

Bu gün Azərbaycan Ordusunun yüksək döyüş bacarığı yeni ordu modeli və yeni nəsil döyüşçülərlə daha da inkişaf etdirilir. Azərbaycan Ordusu dünya hərb sənayesinin yüksək texnologiyaların tətbiqi ilə hazırlanmış ən müasir, dəqiq, geniş ərazidə məhvetmə qabiliyyətinə malik silah-sursat və döyüş texnikası, idarə olunan DRON tipli pilotsuz uçan qırıcılarla kifayət qədər təmin edilib. Dünyanın ən güclü ordularından biri olan Ordumuzun arsenalında hərbi gücümüzün göstəricisi olan yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən qurğular, döyüş təyyarələri, hərbi və nəqliyyat helikopterləri, kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri mövcuddur.

Bununla yanaşı, "Tufan" zirehli maşını, "Yalquzaq" snayperləri, pilotsuz uçuş aparatının yeni növü - "Zərbə KM" və s. ölkəmizdə istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını daha da gücləndirir. Maddi-texniki bazasının gücləndirilməsi və təkmilləşdirilməsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri daha döyüşkən, daha güclü döyüş qabiliyyətli orduya çevrilir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**